# Birinci Avropa Oyunları xalqlar arasında birlik, həmrəylik nümayiş etdirdi

**Son illərdə bütün sahələrdə olduğu kimi, idmanda da ardıcıl, sistemli tədbirlər həyata keçirilib, nəticədə, mühüm irəliləyişə, olduqca böyük uğurlara nail olunub. Bu dövr ərzində idmanın inkişafı ilə bağlı qarşıya qoyulmuş hədəflərdən biri də yeni idman komplekslərinin tikintisi, mövcud stadionlar üçün əlavə korpusların inşası, onların əsaslı təmiri, müasir avadanlıqlarla təminatı, ümumilikdə infrastrukturun yenilənməsi, dünya standartları səviyyəsində qurulması oldu. Dövlət başçımız cənab İlham Əliyevin idmana və idmançılara göstərdiyi diqqət və qayğının nəticəsidir ki, beynəlxalq yarışlarda əldə etdiyimiz uğurlar hamını sevindirir. Beynəlxalq idman mütəxəssisləri həmişə ölkəmizdəki idmanın inkişafına göstərilən qayğını yüksək dəyərləndirirlər. Bu gün dünya idman ictimaiyyətinin nəzər-diqqətini cəlb etmək, ən mötəbər idman yarışlarına ev sahibliyi etmək böyük cəsarət, məsuliyyət tələb edir. Belə tədbirlərin keçirilməsi nə qədər çətin, ağır olsa da, bir o qədər də şərəflidir. Birinci Avropa Oyunlarının ölkəmizdə keçirilməsi dövlət başçımıza, xalqımıza göstərilən böyük etimad idi.**

Məlumdur ki, olimpiya oyunları beynəlxalq həyatın ən möhtəşəm və mötəbər tədbiridir. Bu tədbirdən heç bir dövlət kənarda qalmır, ölkəsini oyunlarda layiqincə təmsil etməyə çalışır. İdmançıların peşəkarlığına, hazırlığına böyük önəm verilir. Olimpiya oyunlarında göstərilən nəticə yalnız dövlətin, idman həyatının deyil, onun iqtisadi potensialının, ictimai, siyasi, mədəni həyatının nəticəsidir.

2015-ci il Azərbaycan dövlətinin və xalqının tarixinə daha əlamətdar hadisə kimi həkk olundu. Azərbaycan dünyanın nəzərlərini özünə cəlb etdi. Dünya Azərbaycanda keçirilən idman yarışlarını maraqla, həyəcanla izləyirdi. Bu tarixi tədbir dövlətlərin ölkəmizlə daha yaxından tanış olmaq imkanı yaratdı. Birinci Avropa Oyunları sübut etdi ki, ölkəmizdə idmana maraq, onun inkişafı üçün göstərilən səylər güclüdür. Bu sahədə müasir infrastruktur yaradılıb. İlk Avropa Oyunlarına ev sahibliyi etmək bizə nəsib oldu. Beynəlxalq təşkilatların xalqımıza, dövlətimizə göstərdikləri etimadı layiqincə doğrultduq.

I Avropa Oyunlarının gedişi sübut etdi ki, respublikamız ən mötəbər beynəlxalq idman tədbirlərinin keçirilməsi sahəsində geniş təcrübəyə malikdir. Oyunların təşkili, keçirilməsi bütün iştirakçı dövlətlərin nümayəndə heyətləri tərəfindən daim xüsusi qeyd edilirdi.

“Azərbaycanda keçirilən beynəlxalq tədbirlərdə, o cümlədən Avropa və dünya çempionatlarında, “Eurovision-2012” mahnı müsabiqəsində əldə etdiyimiz təcrübəyə əsaslanaraq I Avropa Oyunlarının da ən yüksək səviyyədə keçirilməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik və bütün gücümüzlə çalışacağıq ki, göstərdiyiniz etimadı doğruldaq”. Bu sözləri I Avropa Oyunlarının keçirilməsi üzrə Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva komitənin hələ ilk iclasında söyləmişdi. O zaman qarşıda cəmi 2 il yarımdan da az vaxt var idi. Olimpiya oyunlarında isə bu müddət 8 il olur. Müddətin az olmasına baxmayaraq Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi hazırlıq işlərini ən yüksək səviyyədə başa vurdu. Bu dövrdə Bakıda 5 yeni idman qurğusu inşa edilib. Qısa zamanda Bakı Olimpiya stadionu, Milli Gimnastika Arenası, Su İdman sarayı, Bakı Atıcılıq Mərkəzi və Velopark inşa olundu. Yarışların keçirildiyi digər idman kompleksləri ən müasir standartlar səviyyəsində yenidən qurulub. Avropa Olimpiya Komitəsinin ilk Avropa Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qəbul etdiyi qərardan sonra ölkəmizdə bu mühüm tədbirə bütün sahələrdə hazırlıq işləri yüksək səviyyədə aparıldı.

Avropanın 50 ölkəsindən 6 mindən çox atletin bir araya toplayıb onların idman mübarizəsi üçün geniş imkanlar yaradan Bakı dünyanın heyran qaldığı idman mərkəzinə çevrilib. Hələ dünya Bakıda keçirilən belə möhtəşəm beynəlxalq tədbirlərə çox şahid olacaq.

Böyük inamla, qətiyyətlə deyə bilərik ki, Azərbaycanın ciddi səylə hazırlaşdığı birinci Avropa Oyunları tarixə düşdü. Bu tarixin başlanğıcı Bakıda qoyuldu. İlk səhifələr Bakıda, qədim Odlar yurdunda, qəhrəmanlıqlar diyarında yazıldı. Bakıda keçirilən bu möhtəşəm tədbirin Avropa idman hərəkatında yeni dövrün başlanğıcını qoydu. Qeyd edək ki, Azərbaycan son illərdə çoxsaylı beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi edib. Bütün bunlar ölkəmizin beynəlxalq imicini yüksəldib, sosial-iqtisadi inkişafını sürətləndirib, ölkəmizə daha çox turistin cəlb edilməsinə müsbət təsir göstərib.

Azərbaycanda şölələnən məşəl bütün dünyanı birliyə, dostluğa, əməkdaşlığa, həmrəyliyə səslədi. Dünyada günahsız insanların qırğınına son qoymağa, hər bir insana yaşamaq və xoşbəxt olmaq haqqını tanımağa, Qarabağı azad etməyə çağırdı.

Azərbaycanın dövlət başçısı, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin və “Bakı-2015” I Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın yarışları izləmələri, qalib idmançılara medalları şəxsən təqdim etmələri ən xoş məqamlar, hadisələr, qürurlandırıcı anlar idi. Dövlət başçımız nəinki qaliblərə, eyni zamanda oyunlarda məğlub olan, bu məğlubiyyətlə barışmaq istəməyənlərə də dəstək verdi, onlara ruhdan düşməməyi, təbirli, dözümlü olmağı, qarşıdakı yarışlara daha ciddi, əzmlə hazırlaşmağı tövsiyə etdi. Sevindirici haldır ki, yarışlara xalqın və hakimiyyətin marağı böyük idi.

I Avropa Oyunlarının Bakıda keçirilməsi və möcüzələrlə dolu açılış və bağlanış mərasimləri xalqımızın yaddaşında heç vaxt unudulmayan hadisə, idman salnaməmizdə tarixi qələbə oldu. Aylar, illər, qərinələr, əsrlər dəyişəcək, yeni idman qaydaları, oyunlar yaranacaq. Ancaq Avropa Oyunlarının ilk məşəlinin şölələndiyi diyar, möhtəşəm açılış və bağlanış mərasimləri haqqında deyilən yüksək fikirlər dəyişməyəcək. Mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edən Azərbaycan Respublikası yenə də bu istiqamətdə bir ilkə imza atdı. İlk Avropa Oyunları Azərbaycanda keçirildi. Uğurlarımıza, nailiyyətlərimizə qara yaxmaqla məşğul olan, bədniyyətli, xəbis insanların xəyalları, arzuları ürəklərində qaldı. Olimpiya yarışlarında xalqla hakimiyyət birlik, həmrəylik nümayiş etdirdi. Öz Prezidentinə arxalanan, onun daxili və xarici siyasətini dəstəkləyən xalqı qarşıda daha möhtəşəm qələbələr gözləyir.

**Mirfaiq HEYDƏROV,**
**Bakıdakı 138 nömrəli**
**tam orta məktəbin direktoru.**